# Əsas sözlər: Köməkçi məhsullara giriş

| Termin | Təsviri | Şəkli |
| --- | --- | --- |
| **Qulaq arxası eşitmə cihazı** | Qulaq arxası (QA) eşitmə cihazı qulağınızın yuxarısına keçirilir və qulağın arxasında qalır. Eşitmə cihazı boru vasitəsilə qulaq kanalınıza uyğun gələn, qulaqcıq adlanan fərdi qulaqlığa birləşir. |   |
| **Kateter** | Sidik kisəsindən sidiyi boşaltmaq üçün istifadə olunan yumşaq boru. Sidik kisəsini müstəqil şəkildə və ya öz istəyi ilə boşalda bilməyən bəzi insanlar tərəfindən istifadə olunur. |  |
| **Zəiflik** | Zəif, kövrək və enerjisi az. Bir çox hallarda insanlar yaşlandıqca və səhhətləri zəiflədikcə baş verir. | |
| **İnkontinensiya** | Şəxsin öz sidik kisəsini və ya bağırsaqlarını nəzarətdə saxlamaqda problem yaşaması və ya nəzarətdə saxlaya bilməməsi. | |
| **Səs və (və ya) toxunma vasitəsilə çalışan saat** | Vaxtı şifahi olaraq bildirən saat. |   |
| **Heyət** | Xidmət müəssisəsində və ya təşkilatda çalışan şəxslər. | |
| **Rollator** | Gəzinti üçün dörd təkərli hərəkət vasitəsi |  |
| **İnsult** | Beyində qan dövranına maneənin yaranması. Beynin bir tərəfinin zəifləməsinə və ya iflic olmasına, həmçinin danışma, hiss etmə, düşünmə və görmədə problemlərə səbəb ola bilər. | |
| **ÜST-ün Prioritet Köməkçi Məhsullar Siyahısı** | Prioritet köməkçi məhsulların ÜST tərəfindən hazırlanmış siyahısı. Bu siyahı ölkələrin əsas köməkçi məhsullar üzrə milli siyahılarını hazırlamaq üçün istifadə edə biləcəyi nümunədir. | |

| | | |
|---|---|---|
| **Serebral iflic** | Hərəkətə, əzələ tonusuna, müvazinətə və duruşa təsir edən bir sıra hallar. Beyin iflici doğuşdan əvvəl, doğuş zamanı və ya doğuşdan qısa müddət sonra beynin zədələnməsinin nəticəsidir. | |
| **Daun sindromu** | İnsanda anadangəlmə ola biləcək hal. Daun sindromu müəyyən sağlamlıq, inkişaf və idrak (düşünmə) problemlərinə səbəb ola bilər. Daun sindromlu insanların xüsusi fiziki xüsusiyyətləri ola bilər. | |
| **Onurğa beyninin zədələnməsi** | Adətən qəza və ya xəstəlik nəticəsində onurğa beyninin zədələnməsidir. Onurğa beyninin hər hansı zədələnməsindən sonra siqnallar bədən və beyin arasındakı onurğa beyni boyunca ötürülə bilmir. Onurğa beyni zədələnmiş şəxs bir çox hallarda hərəkət edə bilmir (iflic olur) və zədənin olduğu səviyyədən aşağısını hiss edə bilmir. | |